

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 iyul 2024-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

"Maarifçi" tələbə-məzun təcrübə proqramını uğurla bitirənlərin 7-si BDU-nun tələbə və məzunudur

→Səh.2

BDU-da Türkiyənin Ankara Sosial Elmlər Universitetinin nümayəndələri ilə görüş

→Səh.2

BDU QS reytinq təşkilatı tərəfindən "Performansın Yüksəlməsi Mükafatı" ilə təltif olunub

→Səh.3

Əqli Mülkiyyət Agentliyində BDU magistrantlarının dissertasiya işlərinin müdafiəsi keçirilib

→Səh.4

BDU-da Süni intellekt etikası kafedrası yaradılır

→Səh.4

BDU-da yeni ixtisaslaşma açılacaq: "Korreksiyaedici təlimin metodları və metodologiyası"

→Səh.6

BDU-nun ictimai həyatında fəal iştirak edən könüllülər təltif olunublar

→Səh.7



BDU ilə Türkiyənin Üsküdar Universiteti arasında əməkdaşlıq genişləndirilir

→Səh.2



BDU Elmi Şurasının 2023/2024-cü tədris ilində son iclası

→Səh.2



IELTS imtahanında uğur qazanmış BDU tələbələrinin təltifolunma mərasimi

→Səh.3



BDU rektoru "Gənc istedadlar" liseyinin qızıl və gümüş nişana layiq görülmüş məzunları ilə görüşüb

→Səh.3



BDU "QS Ali Təhsil Zirvəsi: Avropa 2024" tədbirində təmsil olunur

→Səh.4



## Möhtəşəm 55 il: dövlət müstəqilliyinə aparan milli intibah və hərtərəfli tərəqqi

***Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlişindən 55 il keçir. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda respublika rəhbərliyində kifayət qədər məsul vəzifədə çalışan, Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olan Heydər Əliyev MK-nın birinci katibi seçilərək respublikanın ali rəhbəri səviyyəsinə yüksəlmişdi.***

Ötən 55 ilin tarixi dönə-dönə sübut etmişdir ki, Azərbaycanın sürətli yüksə-lişinin, sovet imperiyası tərkibində qısa müddətdə böyük mədəni intibaha nail olaraq milli varlığını dirçəltməsinin və dünyaya tanıtmasının, 22 il sonra qa-zanılmış dövlət müstəqilliyinə hərtərəfli hazırlıqla qədəm qoymasının təməlləri bu tarixi başlanğıcdan qaynaqlanmışdır. Azərbaycan xalqı əsrlərdən gələn ar-zu-istəklərinin möhtəşəmliyi ilə Heydər Əliyev kimi milli bir fenomen – dünya siyasətinə boy verən nəhəng bir rəhbər yetişdirmişdi. Bu lider isə xalqının bəlalı taleyinə sahib çıxaraq onu milli haqlarına qovuşdurmaq üçün ilk gündən müqəddəs bir savaşa başlamışdı.

Ulu öndər Heydər Əliyev bir qərinəlik liderlik fəaliyyəti ilə dünya miqyasında tanınan, etiraf edilən görkəmli siyasət və dövlət xadimi olduğunu tarixə məharət-lə həkk etmişdir. XX əsrin 90-ci illə-rin-də – Azərbaycan beynəlxalq arenaya müstəqil dövlət kimi çıxdığı ilk vaxtlarda ölkəmizi ulu öndər Heydər Əliyevə görə tanıyırdılar. Ümummilli liderin parlaq zə-kası, fitri istedadı, böyük enerjisi, uzaq-görənliyi sərhəd tanımır, Azərbaycanın hüdudlarını aşırdı. Bir çox xalqlar, mil-lətlər bizə qibtə edirdi ki, Heydər Əliyev kimi lideriniz var.

Heç şübhəsiz, Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qə-tiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksəlmiş, dünya inteqrasiya sisteminə qoşula bilmişdir. Xalqımızın Ümummilli liderinin Sovet İtti-faqı kimi nəhəng bir dövlətdə yüksək və-zifə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutması isə Azərbayca-na beynəlxalq nüfuz və hörmət qazandır-mışdır.

Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev dünyanın bü-tün dahi şəxsiyyətlərindən fərqli olaraq iki müxtəlif ictimai-siyasi sistemdə yaşa-mış və fəaliyyət göstərmişdir. Ulu öndər hər iki sistemdə siyasət nərdivanının ən yüksək pilləsinə ucala bilmişdir, xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Müa-sir tariximizin yarım əsrlik bir mərhələsi, o cümlədən müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qovuşması ümum-milli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dünyanın ən güclü dövlət və siyasi xadimləri, ekspertləri bu qüdrətli Azərbay-can oğlunu, çoxəsrlik tariximizin yetirdiyi ən mükəmməl şəxsiyyəti, beynəlxalq miq-yaslı siyasət və dövlət xadimini fenomen lider kimi qiymətləndirmişlər. Ulu öndər haqqında müasiri olan dünya liderləri, tanınmış dövlət xadimləri, siyasi xadim-lər, məşhur elm adamları, yazıçılar çox dəyərli, qiymətli sözlər söyləmişlər.

S.Dəmirəl, C.Buş, R.T.Ərdoğan, V.Putin, Bill Klinton, Jak Şirak, Toni Bleyer, Ç.Aytmatov, E.Şevardnadze, Xu Szin-tao, G.Şröder, II İohan Pavel, çox sayda digər dövlət və siyasət xadimlərinin ver-diyi yüksək dəyərdə qeyd olunmuşdur ki, Heydər Əliyev qeyri-adi şəxsiyyət, xalqının xilaskarı, bütün dünyada böyük nüfuz sahibi, Cənubi Qafqazın ən əsas şəxsiyyətidir.

*(ardı 5-ci səhifədə)*

## BDU "Webometrics"də "Şəffaflıq" indikatoru üzrə ölkə birincisidir

→Səh.4

# BDU ilə Türkiyənin Üsküdar Universiteti arasında əməkdaşlıq genişləndirilir



***İyulun 2-də BDU-da Türkiyənin Üsküdar Universitetinin rektoru Nazife Güngör ilə görüş olub.***

Rektor Elçin Babayev Üsküdar Universiteti ilə ötən il imzalanan akademik əməkdaşlıq protokolunun hər iki təhsil müəssisəsinin inkişafına fayda verdiyini qeyd edib. O, əməkdaşlığın təhsil, elmi tədqiqat sahələrini, birgə elmi seminar və konfransların keçirilməsini əhatə etdiyini diqqətə çatdırıb, xüsusilə jurnalistika üzrə magistratura səviyyəsində yaxın zamanlarda ikili diplom proqramının imzalanmasının vacibliyini bildirib. Rektor digər sahələr üzrə də əməkdaşlıq imkanlarının olduğunu xatırladıb, iki universitetin elmin populyarlaşdırılması üçün birgə elmi-kütləvi jurnal nəşr etdirməsinin mümkünlüyünü bildirib.

Üsküdar Universitetinin rektoru Nazife Güngör BDU ilə əməkdaşlığı yüksək qiymətləndirdiyini vurğulayıb. O, Üsküdar Universitetinin jurnalistika ilə bağlı hər il ənənəvi beynəlxalq simpozium keçirdiyini deyib, gələn il ilk dəfə olaraq növbəti simpoziumun BDU ilə birgə Azərbaycanda keçirilməsini təklif edib.

# BDU-da Türkiyənin Ankara Sosial Elmlər Universitetinin nümayəndələri ilə görüş




***İyulun 3-də Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev BDU-da sosiokəndlərin universitetlərdə tətbiqinə dair ikigünlük seminar keçirən Türkiyənin Ankara Sosial Elmlər Universitetinin Sosiokəndinin rəhbəri, professor Erdal Akdeve və əməkdaşı, professor Çetin Öndərlə görüşüb.***

Rektor qonaqlara ötən il BDU və Ankara Sosial Elmlər Universiteti arasında imzalanan anlaşma memorandumu və "Erasmus+ K171" mübadilə proqramından gözləntilərin böyük olduğunu bildirib. Memorandum çərçivəsində BDU və Ankara Sosial Elmlər Universiteti birgə sosial elmi-tədqiqat layihələri həyata keçirəcək. BDU nümayəndə heyəti Ankara Sosial Elmlər Universitetinin Sosiokəndini ziyarət edib, təcrübəsini öyrənib. Elçin Babayev bu baxımdan Ankara Sosial Elmlər Universitetinin əməkdaşlarının seminarını yüksək qiymətləndirib, eyni sistemin BDU-da tətbiqinin Universitetin inkişafına böyük fayda verəcəyinə əminliyini bildirib. Rektor diqqətə çatdırıb ki, BDU-nun Sosial elmlər və psixologiya fakültəsi ölkədə bu sahədə kadr hazırlayan əsas baza hesab olunur. Həmçinin BDU-nun Türkiyədən olan tələbələrinin əksəriyyəti məhz psixologiya ixtisasına meyl göstərirlər.

Qonaqlar Ankara Sosial Elmlər Universitetinin Türkiyənin sosial elmlər üzrə ilk dövlət universiteti olduğunu deyib, sosial innovasiya fəaliyyətinin universitetlərin və cəmiyyətin inkişafına mühüm təsir göstərdiyini bildiriblər.

Görüşdə BDU-da sosial innovasiya fəaliyyətini inkişaf etdirməklə bağlı müzakirələr aparılıb.

# BDU-da ECOLEAD Klinikası yaradılır

*Platformanın əsas komponentləri - "ECOLAB", "Ekoklinik" və "Cərimə Parkı - Təbiətin qisası" ətraf mühit problemlərinin həllinə mühüm töhfə verəcək*

***İyulun 9-da BDU Elmi Şurasının 2023/2024-cü tədris ilinin son iclasında ətraf mühitin mühafizəsi əleyhinə törədilmiş qeyri-qanuni əməllərin araşdırılması, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması, toplanmış bilik və məlumatların paylaşılması, öz səlahiyyətləri daxilində funksiyalarını daha operativ və səmərəli icra etmək üçün ECOLEAD Klinikasının yaradılması barədə qərar qəbul olunub.***

2024-cü il 24 iyun tarixində Xankəndi şəhərində Azərbaycan Respublikasının Baş Prokurorluğun təşkilatçılığı ilə "Ətraf mühitin gücləndirilməsində maarifləndirmə və hüquq-mühafizə tədbirlərinin rolu" mövzusunda elmi-praktik konfrans çərçivəsində Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında ECOLEAD layihəsinə dair anlaşma memorandumu imzalanıb.

Platformanın əsas komponentləri - "ECOLAB", "Ekoklinik" və "Cərimə Parkı - Təbiətin qisası" ətraf mühit problemlərinin həllinə mühüm töhfə verəcək.

ECOLEAD platforması xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında münaqişədən sonrakı ekoloji problemlərin həllində peşəkarların birgə işləməsi üçün əməkdaşlıq məkanı kimi xidmət edəcək.

BDU-da ECOLEAD Klinikasının yaradılması tapşırıqların səmərəli icrası, ekoloji problemlərin vaxtında həlli üçün vacibdir. Klinika ekoloji pozuntuların aşkarlanması, qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı tapşırıqların operativ icrasını təmin edəcək.

# "Maarifçi" tələbə-məzun təcrübə proqramını uğurla bitirənlərin 7-si BDU-nun tələbə və məzunudur



***Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə icra olunan "Maarifçi" tələbə-məzun təcrübə proqramı başa çatıb.***

Elm və Təhsil Nazirliyi, eləcə də qurumlarında təcrübə imkanları yaradan və 3 ay davam edən "Maarifçi" proqramını 25 nəfər müvəffəqiyyətlə bitirib. Onlardan 7-si Bakı Dövlət Universitetinin tələbə və məzunudur.

Proqramın təşkilində məqsəd elm və təhsil sahəsində insan resurslarının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək göstərmək olub.

# BDU-nun həmtəsisçisi olduğu "TWMS Journal Pure and Applied Mathematics" jurnalı 489 beynəlxalq nəşr arasında 6-cı yerdə

***"Clarivate Analitics" Beynəlxalq İnformasiya Agentliyinin hesabatına əsasən, Türk Dünyası Riyaziyyat Cəmiyyətinin və Bakı Dövlət Universitetinin (BDU) "Web of Science" bazasında indekslənən "TWMS Journal Pure and Applied Mathematics" jurnalının impakt faktoru 3.6 olub. Hazırda jurnalın 5 il üzrə orta impakt faktoru 2.1 təşkil edir.***

Jurnal dünyada "Web of Science" bazasında "Riyaziyyat" kateqoriyası üzrə indekslənən 489 beynəlxalq nəşr arasında 6-cı yerdə, "Tətbiqi riyaziyyat" kateqoriyası üzrə isə 331 beynəlxalq nəşr arasında 8-ci yerdə qərarlaşıb.

BDU-nun nəzdində Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda nəşr olunan jurnalın indiyə qədər 29 nömrəsində 290-dan artıq məqalə dərc edilib.

Qeyd edək ki, 2015-ci ildə jurnal "Clarivate Analitics" Beynəlxalq İnformasiya Agentliyinin "Emerging Sources Citation Index", 2020-ci ildə isə "Science Citation Index Expanded" bazasına daxil edilib. Jurnalda dərc olunan məqalələr "MatReviews", "Zentrablatt" kimi bazalarda arxivlənir.

# BDU Elmi Şurasının 2023/2024-cü tədris ilində son iclası



***İyulun 9-da BDU-nun Elmi Şurasının 2023/2024-cü tədris ilində son iclası keçirilib.***

Rektor Elçin Babayev gündəlikdə olan məsələləri iclas iştirakçılarının diqqətinə çatdırıb.

Tədris və təlim texnologiyaları üzrə prorektor Fərda İmanov iclasda 2023/2024-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası və Yekun Dövlət Attestasiyasının nəticələri barədə təqdimatla çıxış edib. Bildirilib ki, imtahan sessiyasında 18 mindən artıq tələbə iştirak edib. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb.

Apelyasiya Komissiyasının sədri Elşad Qurbanov sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif, Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılması barədə məlumat verib.

Yaz imtahan sessiyasının nəticələri Elmi Şura üzvləri tərəfindən məqbul hesab edilib.

# IELTS imtahanında uğur qazanmış BDU tələbələrinin təltifolunma mərasimi

***İyulun 4-də BDU-da Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə IELTS imtahanında uğur qazanmış tələbələrin təltifolunma mərasimi keçirilib.***

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsini hədəfləyən layihənin icrasına 2022-ci ilin oktyabr ayından başlanılıb. Layihənin əsas məqsədi təhsilin keyfiyyətini, xarici dil biliklərinin səviyyəsini yüksəltməkdir. Rektor bunun tələbələr üçün böyük fürsət, dövlətin gənclərə qayğısının daha bir bariz nümunəsi olduğunu vurğulayıb: “Xarici dillərin, o cümlədən elm, inkişaf dili sayılan ingilis dilinin öyrənilməsi günün tələbidir. Bunu nəzərə alaraq BDU-da dövlət-özəl əməkdaşlığı formatında “You will speak” Dil Mərkəzi yaradılıb”.



Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov isə bu layihənin tələbələrin inkişafı üçün böyük əhəmiyyət daşıdığını bildirib. O qeyd edib ki, 3 il əvvəl Təhsilin İnkişafı Fondu və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin birgə icra etdiyi layihənin 6 tərəfdaş ali təhsil müəssisəsi (Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) vardı. Artıq Bakı Slavyan Universiteti, Bakı Mühəndislik Universiteti və Sumqayıt Dövlət Universiteti də layihəyə qoşulub. Layihə çərçivəsində IELTS imtahanında iştirak edən və yüksək bal toplayan 350-dək akademik heyət üzvü və tələbənin bu imtahan üzrə ödənişləri Təhsilin İnkişafı Fondu tərəfindən qarşılanır.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) İdarə Heyətinin sədri Tural Əhmədov imtahanda uğur qazanan tələbələri təbrik edib. O bildirib ki, elmi-pedaqoji heyətin və təhsilalanların dil biliklərinin yüksək olması onların özlərinin, təmsil etdikləri ali təhsil müəssisəsinin və ölkənin inkişafına fayda verir. Təsadüfi deyil ki, ötən il Dövlət Proqramı çərçivəsində 49 gəncimiz dünyanın ən yaxşı 10 universitetinə qəbul olunub.

Sonda BDU-nun IELTS imtahanında uğurlu nəticə göstərən 17 tələbəsinə müvafiq sertifikatlar təqdim olunub.

# BDU QS reytinq təşkilatı tərəfindən “Performansın Yüksəlməsi Mükafatı” ilə təltif olunub

***İyulun 11-də BDU dünyanın nüfuzlu reytinq təşkilatı olan “QS Quacquarelli Symonds” (QS) agentliyi tərəfindən tərtib olunan bir sıra reytinqlərdə son illərdə əldə etdiyi uğurlara görə “Performansın Yüksəlməsi Mükafatı” (“Performance Improvement Award”) ilə təltif olunub. Mükafat BDU-nun rektoru Elçin Babayevə QS-in baş vitse-prezidenti Ben Sowter tərəfindən təqdim olunub.*** İspaniya Krallığının Barselona şəhərində keçirilən “QS Ali Təhsil Zirvəsi: Avropa 2024” (“QS Higher Ed Summit: Europe 2024”) tədbirində baş tutan təltifolunma mərasimində QS-in baş vitse-prezidenti BDU-nun son illərdə reyinqlərdə əhəmiyyətli irəliləyişi ilə bağlı uğurunu vurğulayıb.

Məlumat üçün bildirək ki, BDU böyük uğura imza atmaqla “QS World University Rankings 2025”də 179 pillə irəliləyərək, 951-1000 aralığında qərarlaşıb və ölkədə lider mövqeyə yüksəlib. BDU eyni zamanda “Tələbə-müəllim nisbəti” (“Faculty-Student Ratio”) indikatoru üzrə dünyada 373-cü, “Məşğulluq göstəriciləri” (“Employer Outcomes”) indikatoru üzrə isə 271-ci mövqedə qərarlaşıb. Bununla yanaşı, müxtəlif indikatorlara görə qiymətləndirmə nəticələrinə əsasən, BDU “Tələbə-müəllim nisbəti” (“Faculty-Student Ratio”), “Fakültə üzrə istinad” (“Citation per Faculty”), “Beynəlxalq tədqiqat şəbəkəsi” (“International Research Network”) və “Məşğulluq göstəriciləri” (“Employer Outcomes”) indikatorları üzrə ölkədə lider mövqeyindədir.

Eləcə də BDU “QS Avropa 2025” (“QS Europe 2025”) reytinqində qiymətləndirmə nəticəsi olaraq əvvəlki illə müqayisədə 43% irəliləyiş əldə edib və 78 pillə irəliləyərək 336-cı mövqeyə, “QS Qərbi Asiya 2025” (“QS Western Asia 2025”) reytinq siyahısında isə 4 pillə irəliləyərək 93 universitet arasında 15-ci mövqeyə yüksəlib.

# BDU rektoru “Gənc istedadlar” liseyinin qızıl və gümüş nişana layiq görülmüş məzunları ilə görüşüb




***İyulun 31-də BDU-nun rektoru Elçin Babayev Universitetin nəzdində “Gənc istedadlar” liseyinin qızıl və gümüş nişana layiq görülmüş builki məzunları ilə görüşüb.***

Rektor təhsildə qazandıqları uğurlara görə məzunları təbrik edib, bunun gələcək nailiyyətlərin başlanğıcı olduğunu vurğulayıb. Rektor Elçin Babayev liseydə yaradılmış tədris şəraitinin qənaətbəxş olduğunu, lisey şagirdlərinin ali məktəblərə qəbul imtahanlarında, respublika və dünya olimpiadalarında önəmli nəticələr qazandıqlarını bildirib.

Sonra rektor məzunlara qızıl və gümüş nişanları, xüsusi nümunəli və fərqlənmə attestatlarını təqdim edib.

Qeyd edək ki, bu il liseyin 6 məzunu qızıl və gümüş nişana layiq görülüb.

# BDU Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universiteti ilə “Orhun” mübadilə protokolu imzalayıb

***İyulun 30-da BDU ilə Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universiteti arasında “Orhun” mübadilə protokolu imzalanıb.***

Protokolu BDU-nun rektoru Elçin Babayev və Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universitetinin rektoru Muxtar Toleqen imzalayıb. Protokol çərçivəsində təhsilalanların, o cümlədən tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur. Bu gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsini təmin edəcək.

Qeyd edək ki, əsası 1996-cı ildə qoyulmuş Sarsen Amanjolov adına Şərqi Qazaxıstan Universitetində 11 fakültə üzrə 6.000-ə qədər tələbə təhsil alır.

# BDU və Türkiyənin Bayburt Universiteti arasında anlaşma memorandumu imzalanıb

***İyulun 25-də BDU və Türkiyənin Bayburt Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Bayburt Universitetinin rektoru Mutlu Türkmen imzalayıb.

Memorandum təhsil və tədqiqat sahəsində hər iki universitet arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsədini daşıyır. Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçılar və akademik heyətin mübadiləsi nəzərdə tutulur. Əsası 2008-ci ildə əsası qoyulmuş Bayburt Universiteti Türkiyənin ən nüfuzlu universitetlərindən biri hesab olunur. Bayburt Universitetində 9 fakültə, 6 peşə məktəbi fəaliyyət göstərir və 16000-dən çox tələbə təhsil alır.

# BDU-da Qazaxıstan və Özbəkistan üzrə iki yeni ixtisaslaşma açılacaq

***Yeni tədris ilindən Tarix fakültəsinin Türk xalqları tarixi kafedrasında magistratura səviyyəsində iki yeni ixtisaslaşma - “Ölkəşünaslıq (Qazaxıstan üzrə)” və “Ölkəşünaslıq (Özbəkistan üzrə)” kadr hazırlığına başlanılacaq.***

Bu ixtisaslaşmaların tələblərinə uyğun olaraq, “Qazaxıstan və Özbəkistan tarixi”, “Qazax və özbək xalqlarının dövlətçilik tarixi”, “Qazax və özbək xalqlarının etnogenez məsələləri”, “Qazax və özbək xalqlarının mədəniyyəti”, “Mərkəzi Asiya regionunun təhlükəsizlik problemləri kontekstində Qazaxıstan və Özbəkistan Respublikaları”, “Türk dünyası daxili inteqrasiya prosesləri və Qazaxıstan və Özbəkistan Respublikaları”, “Qazaxıstan və Özbəkistan Respublikalarının xarici siyasəti”, “Azərbaycan – Qazaxıstan, Azərbaycan – Özbəkistan münasibətlərinin geosiyasi aspektləri”, "Qazaxıstanda və Özbəkistanda etno-siyasi vəziyyət" və s. fənlərin tədrisi nəzərdə tutulur.

# Əqli Mülkiyyət Agentliyində BDU magistrantlarının dissertasiya işlərinin müdafiəsi keçirilib

***İyulun 5-də Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində Hüquq fakültəsinin hüquqşünaslıq ixtisasının əqli mülkiyyət hüququ və informasiya hüququ ixtisaslaşmaları üzrə 9 magistrantın dissertasiya işlərinin müdafiəsi keçirilib.***



Tədbirdə İdarə Heyətinin sədri Kamran İmanov çıxış edərək əqli mülkiyyət hüquqlarının qorunmasının hər bir ölkənin hüquq sistemində mühüm yer tutduğunu və bu hüquqların effektiv qorunmasının iqtisadi, sosial-mədəni və elmi inkişafın əsasını təşkil etdiyini vurğulayıb. Kamran İmanov bildirib ki, əqli mülkiyyət hüququ əqli fəaliyyətin nəticələrinin təmin edilmiş hüquqlarıdır. Daha sonra sədr məzunları təbrik edərək təhsil yollarında onlara uğurlar arzu edib və onların biliklərini yüksək səviyyədə nümayiş etdirəcəklərinə əmin olduğunu bildirib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev diqqətə çatdırıb ki, əqli mülkiyyətin mühafizəsi sahəsində ixtisaslı kadrların hazırlanması məqsədilə 2019-cu il dekabrın 16-da Əqli Mülkiyyət Agentliyi ilə əməkdaşlıq çərçivəsində ilk dəfə olaraq BDU-da Əqli mülkiyyət hüququ kafedrası yaradılıb və kafedra əqli mülkiyyət sahəsində ixtisaslı kadrların hazırlanmasına böyük töhfələr verir.

Sonda imtahan komissiyası üzvləri tərəfindən magistrantların dissertasiya işləri qiymətləndirilib.

Qeyd edək ki, 4 magistrant əqli mülkiyyət hüququ ixtisaslaşması üzrə Fransanın Lion-2 Universiteti və Bakı Dövlət Universitetinin birgə həyata keçirdikləri layihə çərçivəsində ikili diplomlu magistr proqramını müvəffəqiyyətlə bitirib. Digər 5 magistrant isə informasiya hüququ ixtisaslaşması üzrə dissertasiya işlərini uğurla müdafiə ediblər.

# BDU-da Süni intellekt etikası kafedrası yaradılır

***İyulun 9-da BDU-da Beynəlxalq Türk Akademiyası ilə birgə Süni intellekt etikası kafedrası yaradılacaq. Bununla bağlı BDU Elmi Şurasının 2023/2024-cü tədris ilinin son iclasında qərar qəbul olunub.***

Bildirilib ki, hazırda təhsil, elm, səhiyyə, iqtisadiyyat, media, incəsənət və s. kimi sahələrdə süni intellekt əsaslı tətbiqlər sürətlə genişlənir. Süni intellekt bu sahələrin inkişafına töhfə verməklə yanaşı, insan hüquqları və vətəndaş azadlıqları ilə bağlı məsələlərdə bəzən etik problemlərə də səbəb olur. Ona görə də insan hüquqlarına xələl gətirmədən, məsuliyyət və ədalət prinsiplərini qorumaqla süni intellekt tətbiqlərindən istifadə edilməsi, habelə insanlar və maşınlar arasında münasibətləri tənzimləyən etik sistemin hazırlanması üçün elmi və hüquqi vasitələr tələb olunur.

Son illər Beynəlxalq Türk Akademiyası türkdilli ölkələrdə vahid elmi məkanın formalaşması istiqamətində işlər aparır, bu ölkələrin elmi qurumları və mühitinin bir-biri ilə sıx inteqrasiyasında mühüm rol oynayır. Elmi Şuranın qərarına əsasən, Beynəlxalq Türk Akademiyası ilə birgə süni intellekt etikası sahəsində tədqiqatların genişləndirilməsi, yeni texnologiyaların yaratdığı çətinliklərlə ayaqlaşa bilən təhsil və tədqiqat proqramlarının hazırlanması, bu sahə üzrə aparılan elmi-tədqiqat işlərinin dəstəklənməsi, təlim və akademik mübadilə proqramlarının tətbiq olunması üçün BDU-da Süni intellekt etikası kafedrası yaradılacaq.

Kafedra süni intellektin dərin yan təsirləri ilə mübarizə aparılması, süni intellekt sistemlərinin məqsədyönlü inkişafı və tətbiqinə dair tədqiqatlar aparacaq.

# BDU "QS Ali Təhsil Zirvəsi: Avropa 2024" tədbirində təmsil olunur

***BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti dünyada nüfuzlu reytinq təşkilatı olan "QS Quacquarelli Symonds" (QS) agentliyi tərəfindən İspaniya Krallığının Barselona şəhərində təşkil olunan "QS Ali Təhsil Zirvəsi: Avropa 2024" ("QS Higher Ed Summit: Europe 2024") tədbirində iştirak edir.***

Dünyanın ən nüfuzlu universitetlərinin rəhbərlərinin iştirak etdiyi tədbirdə əsas məqsəd Avropanın qabaqcıl ali təhsil müəssisələri arasında əlaqələrin güclənməsinə və təcrübə mübadiləsinə töhfə vermək, eyni zamanda perspektiv əməkdaşlıq əlaqələrinin müzakirə edilməsi üçün platforma yaratmaqdır.




# BDU "Webometrics"də "Şəffaflıq" indikatoru üzrə ölkə birincisidir

***"Dünya Universitetlərinin Vebometrik Reytinqi" ("Webometrics Ranking of World Universities") 2024-cü ilin birinci yarısının nəticələrini elan edib. Müvafiq reytinq siyahısına əsasən, BDU 233 pillə irəliləyib və dünyanın 31606 ali təhsil müəssisəsinin adının yer aldığı reytinq siyahısında 3295-ci yerdə qərarlaşıb. Bununla yanaşı, BDU yeni uğura imza ataraq Avropanın 5985 universiteti arasında 1051-ci, Mərkəzi və Şərqi Avropanın 2692 universiteti arasında isə 232-ci yerə yüksəlib. Onu da qeyd etmək lazımdır ki, BDU "Dünya Universitetlərinin Vebometrik Reytinqi"nin göstəricilərinə görə "Şəffaflıq" ("Transparency") indikatoru üzrə ölkə birincisidir.***

Məlumat üçün bildirək ki, "Dünya Universitetlərinin Vebometrik Reytinqi"nin əsas məqsədi biliyə açıq çıxışı təşviq etmək, ali təhsil müəssisələrinin rəqəmsal fəaliyyətlərini və virtual akademik cəmiyyətə töhfələrini nəzərə alaraq onların qlobal fəaliyyətini qiymətləndirməkdir.

# BDU "QS AVROPA 2025" və "QS QƏRBİ ASİYA 2025" reytinqlərində əhəmiyyətli irəliləyişə nail olub

***Dünyanın ən nüfuzlu reytinq təşkilatı olan "QS Quacquarelli Symonds" agentliyi "QS Avropa 2025" ("QS Europe 2025") və "QS Qərbi Asiya 2025" ("QS Western Asia 2025") reytinq nəticələrini elan edib. Avropanın 42 bölgəsindən müvafiq meyarlara cavab verən 685 ali təhsil müəssisəsi reytinq siyahısında yer ala bilib.***

Bakı Dövlət Universiteti (BDU) "QS Avropa 2025" reytinqində ötən illə müqayisədə 43% irəliləyiş əldə edib və 78 pillə irəliləyərək 336-cı mövqeyə yüksəlib. Eləcə də BDU "QS Qərbi Asiya 2025" reytinq siyahısında 4 pillə irəliləyərək 93 universitet arasında 15-ci mövqedə qərarlaşıb. Müvafiq reytinq qiymətləndirilməsi zamanı BDU Avropada "Fakültə-tələbə nisbəti" ("Faculty-Student Ratio") indikatoru üzrə 70-ci, "Məşğulluq nəticələri" ("Employment Outcomes") indikatoru üzrə 99-cu, "Akademik nüfuz" ("Academic Reputation") indikatoru üzrə isə 174-cü mövqeyə yüksəlib.

Məlumat üçün bildirək ki, BDU müvafiq reytinq qiymətləndirməsində "Məşğulluq nəticələri" ("Employment Outcomes"), "Beynəlxalq tədqiqat şəbəkəsi" ("International Research Network"), "Mübadilə ilə gələn tələbələr" ("Inbound Exchange Students"), "Əcnəbi tələbə müxtəlifliyi" ("International Student Diversity"), "Fakültə üzrə nəşr" ("Papers per Faculty") və "Dayanıqlılıq" ("Sustainability") indikatorları üzrə ölkədə birinci mövqedə qərarlaşıb.

# BDU "Orhun" mübadilə proqramı çərçivəsində əlaqələri genişləndirir

***BDU ilə Qırğız-Türk "Manas" Universiteti arasında "Orhun" mübadilə protokolu imzalanıb.***

Protokolu BDU-nun rektoru Elçin Babayev və Qırğız-Türk "Manas" Universitetinin rektoru Alpaslan Ceylan imzalayıb. Protokol çərçivəsində akademik heyətin, təhsilalan və tədqiqatçıların mübadiləsi nəzərdə tutulur.

1995-ci ildən fəaliyyət göstərən Qırğız-Türk "Manas" Universitetində 11 fakültə üzrə 6000-ə yaxın tələbə təhsil alır.

# Möhtəşəm 55 il: dövlət müstəqilliyinə aparan milli intibah və hərtərəfli tərəqqi

*(əvvəli 1-ci səhifədə)*

O da vurğulanmışdır ki, Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə tanınmasına, dünya dövlətləri ilə beynəlxalq əlaqələrin, dostluq, əməkdaş-lıq əlaqələrinin yaradılmasına çalışmış, onun müstəqil dövlətə çevrilməsində, suverenliyinin qorunub saxlanılmasında, möhkəmləndirilməsində, Qafqazın lider dövlətinə çevrilməsində müstəsna rol oy-namış, ölkəsini çiçəklənmə yoluna gətirib çıxarmışdır.

Həqiqətən, Heydər Əliyev Azərbay-canın xoşbəxtliyi, firavanlığı, bölgə-də və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya ta-rixində şərəfli yer tutmuşdur. Ümummilli liderin şəxsiyyəti və onun həyatı elə mə-nalı, elə fəlsəfi, elə müqəddəs məktəbdir ki, bu məktəbin dirilik, əbədiyyət, saflıq, paklıq, humanizm və halallıq kimi insa-ni keyfiyyətlərdən gələcək nəsillər bəh-rələnəcək və milli təntənəyə dərin inam bağlanacaqdır.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, çox bö-yük çətinliklərdən, manelərdən keçərək SSRİ DTK-nin siravi leytenantından ge-neral-mayor rütbəsinədək, kommunistlər ordusunun siravi üzvündən Kreml lider-lərindən biri səviyyəsinə ucalan Heydər Əliyevin adı tarixə Azərbaycan xalqının Qurtuluş mübarizəsinin qalibi, müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azər-baycanın qurucusu kimi daxil olmuşdur. Ümummilli lider Heydər Əliyev XX əsrin ikinci yarısı üçün Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük ərməğan idi.

Xalqımızın böyük oğlu Heydər Əliyev doğma Azərbaycanına iki dəfə rəhbərlik etmişdir: bir totalitar kommunist rejiminin, inzibati amirliyin hökmranlığı dövründə – 1969–1982-ci illərdə, bir də müstəqil Azərbaycanın xilaskar Prezidenti olaraq 1993–2003-cü illərdə. Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərliyinin birinci dövrü xalqımızın tarixində milli oyanışın, özünəqayıdışın başlanması, cəmiyyətin keyfiyyətcə irəliyə və müstəqilliyə doğru dönüş illəridir.

XX əsrin 70-ci illəri və 80-ci il-ləri-nin əvvəlləri Azərbaycanın inkişafında özünəməxsusluğu ilə səciyyələnən bir dövrdür. Bir sıra obyektiv və subyektiv səbəblər üzündən XX əsrin 60-cı illərində respublikanın sosial-iqtisadi həyatının bir çox sahələrində - həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyillər özü-nü göstərməyə başlamışdı. Respublikada uzunmüddətli gerilik hökm sürürdü. İnki-şaf getdikcə ləngiyir və bu, əhalinin sosi-al-maddi vəziyyətinə mənfi təsir göstərir-di.

İstehsalın, o cümlədən sənaye və kənd təsərrüfatı məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan İttifaq səviyyə-sindən geri qalırdı və bu gerilik getdikcə artırdı. Respublikanın kənd təsərrüfa-tında vəziyyət daha ağır idi. Elmi-texni-ki tərəqqinin nailiyyətləri də istehsalata tətbiq olunmurdu. Əmək intizamı aşağı səviyyədə idi. Korrupsiya, rüşvətxorluq getdikcə artırdı.

Ümummilli lider Heydər Əliyev Azər-baycanda XX əsrin 60-cı illərində yaran-mış vəziyyəti sonralar belə xatırlayırdı: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə də-rin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziy-yətdən çıxış yolu tapılmalı, iqtisadiyya-tın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazır-lanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metod-lar tətbiq edilməli idi."

Prezident İlham Əliyev isə Ulu öndərin o dövr siyasi liderliyini belə qiymətləndir-mişdir: "Müstəqil Azərbaycan dövlətinin qurulmasında, onun müstəqilliyinin qo-runub saxlanmasında Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördü-yü işlər önəmli rol oynayırdı. Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəri-cilərə görə axırıncı yerlərdə idi."

1969-cu il iyulun 14-də, respublikada problemlərin, çətinliklərin, sosial-iqtisadi geriliyin hökm sürdüyü, artıq böhran və-ziyyətinin yarandığı ağır şəraitdə Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldi. Doğma xalqının, Vətəninin böyük təəs-sübkeşi olan Ulu öndər totalitar rejimin hökm sürdüyü mürəkkəb tarixi şəraitdə Azərbaycanı SSRİ-nin ən qabaqcıl res-publikalarından birinə çevirmək üçün bü-tün sahələrdə geniş islahatlar proqramı hazırladı və həyata keçirməyə başladı. Beləliklə, XX yüzilliyin 60-cı illərinin so-nunda Heydər Əliyevin doğma xalqına, Vətəninə həsr olunmuş fəaliyyətində yeni dövr başlandı. Sovetlər ölkəsində bu dövrdə durğunluq halları gücləndiyi halda, Azərbaycan tərəqqi yoluna qədəm qoydu.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azər-baycanı düşmüş olduğu çox ağır vəziy-yətdən çıxarmaq üçün qəti tədbirlər gör-məyə başladı. 1969-cu il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbay-can Kommunist Partiyası Mərkəzi Ko-mitəsinin plenumu oldu. Respublikanın yeni rəhbəri Azərbaycanın sosial-iqtisadi böhran vəziyyətinin, uzunmüddətli gerili-yinin təhlilini verdi, səbəblərini açıqladı, çıxış yollarını müəyyənləşdirdi. O, uzaq-görənliklə, dərindən ölçüb-biçərək ölkə-nin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramlarını hazırlatdı və dərhal onların icrasına başlanıldı. Beləliklə, 1969-1982-ci illərdə Azərbaycanın ictimai-siyasi, o cümlədən iqtisadi həyatında intibah dövrü başladı.

Heydər Əliyevin Azərbaycana birin-ci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər respublikanın digər sahələri kimi, iqtisa-diyyatının da dirçəlişi, ölkənin təbii ehti-yatlarından, iqtisadi, təhsil, elm və digər potensiallardan xalqın maddi rifah ha-lının yüksəldilməsi üçün şəraitin yaradıl-ması ilə səciyyələnir. Ötən əsrin 70-80-ci illərində Ulu öndərin Azərbaycana rəhbər-liyi ilə xalqımız öz iqtisadiyyatını yenidən yaratmışdır. Əgər o zamankı nailiyyətlər olmasaydı, Azərbaycan sonralar müstəqil dövlət kimi yaşaya bilməzdi.

1969-1982-ci illərdə müdrik, zəngin təcrübəyə malik Heydər Əliyevin rəhbər-liyi altında respublika iqtisadiyyatında istehsalın sürəti xeyli genişlənmiş, məh-suldarlıq yüksəlmiş, böyük uğurlar qaza-nılmış, elmi-texniki tərəqqidə ciddi irəlilə-yişlər baş vermiş, əhalinin maddi rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Azərbaycanın tarixi inkişafının sonrakı gedişi sübut etdi ki, bu gün müstəqil döv-lətimizin sosial-iqtisadi və idarəçilik əsas-ları hələ 1969–1982-ci illərdə Heydər Əli-yevin fədakar əməyi, uzaqgörən, müdrik siyasəti, düşüncəsi sayəsində qurulmağa başlamışdır.

Heydər Əliyev sovet rəhbərliyindəki nüfuzundan istifadə edərək Azərbayca-nın xalq təsərrüfatının inkişaf etdirilməsini təmin etmək üçün sovet hökumətinin res-publika iqtisadiyyatının müxtəlif sahələrini əhatə edən aşağıdakı tarixi qərarlarının qəbul edilməsinə nail olmuşdu: 1970-ci il iyulun 23-də "Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında"; 1970-ci il 25 iyulda "Azərbay-can SSR kənd təsərrüfatını daha da inki-şaf etdirmək tədbirləri haqqında"; 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensiv-ləşdirmək tədbirləri haqqında"; 1976-cı il iyulun 27-də "1976-1980-ci illərdə res-publika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində"; 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrü-fatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdir-mək tədbirləri haqqında".

Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi, iqti-sadi müstəqilliyi, xarici iqtisadi əlaqələri və dünya iqtisadiyyatına getdikcə daha də-rindən inteqrasiya olunması hələ 1969–1982-ci illərdə təməli qoyulmuş so-sial-iqtisadi potensiala əsaslanır. Ulu ön-dər 1969-1982-ci illərdə bütün bacarığını Azərbaycanın ümumi tərəqqisi və inkişafı üçün səfərbər edə bildi. O illər Azərbay-can SSR-in tarixinə dinamik inkişaf, inti-bah dövrünün başlanması kimi daxil oldu. İqtisadiyyatın, xüsusilə kənd təsərrüfa-tı-nın, sənayenin bütün sahələrində yüksə-liş baş verdi. Respublika iqtisadiyyatında ciddi struktur dəyişiklikləri həyata keçirildi. Müasir və mütərəqqi sənaye sahələri ya-radıldı.

1969–1982-ci illərdə neft və neftayır-ma, qaz sənayesi əsaslı şəkildə yenidən qurulmuşdu. "Azərneft" və "Xəzər Dəniz Neft" Birliyinin işində 60-cı illərdə yaran-mış nöqsanların aradan qaldırılma-sı ilə bağ-lı Ulu öndərin rəhbərliyi və köməyi ilə bir sıra mühüm tədbirlər görülmüş, əhəmiy-yətli qərarlar qəbul edilmişdi. Neftçıxarma texnologiyası xeyli yaxşılaşmışdı. Dənizdə 2800-6500 metr dərinlikdə neft quyularının qazılmasına başlanmışdı. Burada müasir "Xəzər", "Bakı", "Self-1", "Self-3" qazma qurğularından istifadə olunurdu. Bunun nəticəsi idi ki, XX əsrin 70-ci illərində bu sahəyə Heydər Əliyevin böyük diqqəti və qayğısı sayəsində neft hasilatında, bü-tövlükdə, neft sənayesində ciddi dönüş yaranmış, uzun illərdən bəri mövcud olan bəzi problemlər aradan qaldırılmışdı.

Araşdırmalar göstərir ki, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi il-lər-də Azərbaycan keçmiş SSRİ-də elektro-texnika sənayesinin ən böyük və əhə-miy-yətli mərkəzlərindən birinə çevrilmişdi. XX əsrin 70-ci illərinin ikinci yarısında (1976-1980-ci illərdə) Elektrotexnika Sənayesi Nazirliyi müəssisələrində istehsalın həcmi 2,4 dəfə artmışdı. Yeni sahələrin inkişafına xüsusi əhəmiyyət verməklə, məsələn ra-dio-elektronikanı inkişaf etdirməklə yanaşı, Heydər Əliyev yüngül sənayeni də, ənənəvi sahələri də – ipəkçilik, xalçaçılıq, çini qablar istehsalını da unutmurdu.

1969–1982-ci illərdə Heydər Əliyevin uzaqgörənliyi sayəsində respublikanın enerji müstəqilliyi təmin olundu. Belə ki, Araz, Tərtər, Şəmkir su elektrik stansi-yaları, "Azərbaycan" DRES-i işə salındı. Heydər Əliyev ilə respublikada elmin inki-şafına və təhsil səviyyəsinin yüksəldilmə-sinə böyük diqqət yetirilirdi. Azərbaycan-da onlarla yeni elmi-tədqiqat müəssisəsi yarandı. Respublikanın güclü elmi-texniki və istehsal potensialına söykənən iqtisa-diyyatının mühüm istiqamətlərinin, o cüm-lədən kənd təsərrüfatının inkişafı ardıcıl mərhələlər üzrə həyata keçirildi.

Heydər Əliyevin respublikaya rəhbər-lik etdiyi 1969–1982-ci illərdə ən mühüm iqtisadi nəticələrdən birini kənd təsərrü-fatının dinamik inkişaf etməsi, ölkənin və respublikanın bütün iqtisadiyyatında onun rolunun artması təşkil edirdi. Bu dövrdə is-tehsalın elmi əsaslarla intensivləşdirilmə-si kənd təsərrüfatının dinamik inkişafın-da mühüm rol oynamışdı. Respublikada kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981–1985-ci illərdə orta hesabla 1966–1970-ci illərin orta səviyyəsinə nis-bətən 2,6 dəfə çoxalmışdı.

Yekun olaraq deyə bilərik ki, 1969-cu il 14 iyulda Heydər Əliyevin Azərbaycan SSR-də hakimiyyətə gəlməsi ilə 1970-1980-ci illər Azərbaycan tarixinin inti-bah, dönüş, dirçəliş, milli özünəqayıdış dövrü kimi qiymətləndirilir. SSRİ-də dur-ğunluğun gücləndiyi dövr olduğu halda, Azərbaycanda yüksəliş dövrü olmuşdu. Respublika həyatının bütün sahələrində olduğu kimi, iqtisadiyyatda da dirçəliş, sürətli inkişaf, kənd təsərrüfatının ixtisas-laşdırılması, sənayenin yeni sahələrinin yaradılması, neft, neft-kimya, neft-ma-şınqayırma sənayelərinin yenidən qu-rulması dövrü kimi xarakterizə olunur. Heydər Əliyevin fədakar əməyi, qətiyyəti, zəngin idarəçilik və təşkilatçılığı ilə iqtisa-di inkişaf dinamikası Azərbaycanda keç-miş İttifaq respublikalarından xeyli yüksək olmuşdu.

Respublikada elmin inkişafına və təh-silin səviyyəsinin qaldırılmasına, Azər-baycan xalqının milli dəyərlərinə böyük diqqət yetirildi. Görkəmli elm, təhsil, incəsənət, ədəbiyyat xadimlərinin yubi-leyləri keçirilir, onlara fəxri adlar verilirdi. Azərbaycanın xarici əlaqələri bu illərdə xeyli genişlənmiş, Avropa, Yaxın və Orta Şərq ölkələri, Ön Asiya və digər region ölkələri ilə münasibətlər qurulmuşdu.

Beləliklə, XX əsrin 70-ci illəri – 80-ci illərin əvvəlləri dahi şəxsiyyət, görkəm-li dövlət xadimi Heydər Əliyevin adı ilə yüksəliş dövrü kimi səciyyələnir. Məhz bugünkü müstəqilliyimizin siyasi, sosi-al-iqtisadi əsasları da həmin illərdə yara-dılmışdı.

***İbrahim ZEYNALOV,***
Tarix fakültəsinin dekanı,
professor

# ABŞ-nin Şimali Dokota Universitetinin professoru Azər Əhmədov BDU-da elmi seminar keçirib

*İyulun 1-də Amerika Birləşmiş Ştatlarının (ABŞ) Şimali Dokota Universitetinin professoru Azər Əhmədov Mexanika-riyaziyyat fakültəsində “Li qruplarının şəbəkələri” mövzusunda elmi seminar keçirib.*



Məruzəçi əvvəlcə Li qrupları barədə məlumat verib. Li qruplarının şəbəkələrinin xassələrini sadalayan alim bu qrupların bərkliyi, arifmetikliyi və sonluluğu haqqında Margulis teoremlərini şərh edib. Daha sonra isə isotipik Li qruplarında şəbəkə olmayan diskret qruplar barədə iştirakçıları məlumatlandırıb.

Sonda məruzəçi fakültənin professorları Ziyatxan Əliyev, Sadiq Abdullayev, Rəşid Əliyev, Hamlet Quliyev, Əli Əhmədovun mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU əməkdaşı Portuqaliyanın Lissabon Universitetində xərçəng əleyhinə tədqiqatlar aparacaq

*İyulun 9-da BDU-nun Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının müdiri, ICESCO-nun Biotibbi materiallar kafedrasının müəllimi Ələkbər Hüseynzadə 15 sentyabr- 15 oktyabr tarixlərində Portuqaliyanın Lissabon Universitetində tədqiqatlar aparacaq.*

O, Lissabon Universitetinin professoru Armando J.L.Pombeiro, eləcə də hazırda həmin universitetdə uzunmüddətli ezamiyyədə olan BDU əməkdaşları Kamran Mahmudov və Ataş Qurbanovla dihidropirimidinlərin sintezi və tədqiqi üzrə birgə tədqiqatlar aparmaq üçün dəvət olunub.

Məlumdur ki, bioloji aktiv birləşmələrin nümayəndələri olan dihidropirimidinlər xərçəng, vərəm, göbələk əleyhinə, antibakterial, antiviral, ağrıkəsici, proliferativ, kalsium və kalium kanal blokatorları və s. kimi təsirlərə malikdir. Tədqiqatın ilk mərhələlərində aktivlik göstərən maddə sonradan müxtəlif amillərə görə dərmana çevrilmək şansını itirə bilər. Dihidropirimidinlərin əsasında monastrol, enastrol, fluorastrol, mon-97 (xərçəng əleyhinə fəaliyyət), batzelladin A və B (anti-HİV aktivliyi) kimi müxtəlif dərmanlar artıq sintez edilib və tibbdə geniş istifadə olunur. Qeyd olunan birləşmələrin sintezi mikrodalğalı reaktorda aparılacaq.

Tədqiqatın növbəti mərhələsində sintez olunan birləşmələrin xərçəng əleyhinə aktivliyi Türkiyənin Sivas Cümhuriyyət Universitetində yoxlanılacaq.

# BDU aliminin məqaləsi beynəlxalq impakt faktorlu jurnalda dərc olunub

Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Ziyatxan Əliyevin həmmüəllifi olduğu “Dördüncü tərtib adi diferensial tənliklər üçün bəzi qeyri-xətti sərhəd məsələlərinin nodal həllərinin mövcudluğu” (“Existence of nodal solutions to some nonlinear boundary value problems for ordinary differential equations of fourth order”) adlı məqaləsi “Web of Science” elmmetrik bazasına daxil olan Q1 kvartilli (IF: 1.087) “Electronic Journal of Qualitative Theory of Differential Equations” jurnalında dərc olunub.

Məqalədə sərhəd şərtinə spektral parametrə daxil olan dördüncü tərtib adi diferensial tənliklər üçün bəzi qeyri-xətti sərhəd məsələlərinin düyün həllərinin mövcudluğu araşdırılır. Bunun üçün əvvəlcə qeyd olunmuş sayda nodal sıfırları olan funksiyalar siniflərində uyğun qeyri-xətti məxsusi qiymət məsələlərinin həllərinin sıfırdan və sonsuzluğundan qlobal bifurkasiyası öyrənilir. Sonra isə bu qlobal bifurkasiya haqqında nəticələrdən istifadə edilərək, baxılan qeyri-xətti sərhəd məsələlərinin qeyd olunmuş sayda nodal sıfırlara malik həllərinin varlığı göstərilir üçün dəvət olunub.

# BDU və “Kapital Bank”ın birgə təşkilatçılığı ilə “Doğru yolun başlanğıcı” adlı təlim

*İyulun 24-də BDU və “Kapital Bank”ın birgə təşkilatçılığı ilə bankın yaranmasının 150 illik yubileyi çərçivəsində BDU-nun Quba Tədris-Təcrübə və İstirahət Mərkəzində “Doğru yolun başlanğıcı” adlı təlim proqramı təşkil olunub.*

Proqram çərçivəsində “Kapital Bank”ın əməkdaşları tərəfindən BDU tələbələri üçün “Şəxsi inkişaf”, “Biznesin qurulması və idarəedilməsi”, “İş mühitində kollektivlə işləmə bacarıqları”, “Karyera planlaması və yüksəlişi” kimi mövzularda təlimlər, açıq havada əyləncəli oyunlar keçirilib.

Sonda fərqlənən bir qrup tələbə “Kapital Bank” tərəfindən hədiyyələrlə təltif edilib. Təltifetmə mərasimində çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Universitetdə həyata keçirilən sosial layihələrdən danışıb, “Kapital Bankla” birgə layihənin gənclərin karyera quruculuğunda faydalı olacağını bildirib.

Qeyd edək ki, təlim proqramında “BDU könüllüləri” təşkilatının, Tələbə Həmkarlar İttifaqı Komitəsinin və Tələbə Gənclər Təşkilatının 100-dən çox üzvü iştirak edib.

# Yeni tədris ilindən BDU-da "Şəhər kadastrı" ixtisaslaşması üzrə kadrlar hazırlanacaq

*Ekologiya və torpaqşünaslıq fakültəsində 2024/2025-ci tədris ilindən magistratura pilləsində "Şəhər kadastrı" ixtisaslaşması üzrə mütəxəssislərin yetişdirilməsinə başlanılacaq.*

Şəhər kadastrı - şəhərin fəaliyyəti və təminatı, buradakı obyektlərin hüquqi, təbii, iqtisadi və təsərrüfat vəziyyəti üzrə ümumi məlumatların nizama salınmasıdır. Şəhər kadastrı istifadəçilərə kadastr məlumatlarının verilməsi, qeydiyyatı, qorunub saxlanılması, emalı, təhlili, toplanması, yerləşdirilməsini təmin edən təşkilati quruluşa malikdir.

Vətən müharibəsindəki qələbədən sonra Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında düşmən qüvvələri tərəfindən dağıdılmış şəhərlərimizin bərpası və yenidən qurulması indiki dövrdə şəhər təsərrüfatı sisteminə yeni yanaşma ("ağıllı şəhər", "ağıllı nəqliyyat", "yaşıl enerji" və s.) tələb edir. "Şəhər kadastrı" ixtisaslaşması üzrə yetişən, ekologiya, yerquruluşu, torpaqşünaslıq, daşınmaz əmlakın kadastrı, ətraf mühitin mühafizəsi və s. ilə bağlı elmi-nəzəri əsasları mənimsəyən kadrların işğaldan azad edilmiş ərazilərin quruculuğunda iştirakı mühüm əhəmiyyət kəsb edir.

İri nəqliyyat dəhlizlərinin ("Bir kəmər, bir yol") ölkəmizin ərazisindən keçməsi, investisiyaların əsasən şəhər təsərrüfatı sisteminə yönəldilməsi, iri və məhəlli Sənaye Parklarının yaradılması, şəhər təsərrüfatı ilə bağlı xarici-inteqrativ əlaqələrin genişləndirilməsi də "Şəhər kadastrı" ixtisaslaşması üzrə kadr hazırlığının vacibliyini şərtləndirən amillərdəndir.

"Şəhər kadastrı" ixtisaslaşmasının magistrantları təhsil aldıqları müddətdə BDU-da, Əmlak Məsələləri Dövlət Xidməti, Şəhərsalma və Arxitektura Komitəsinin struktur bölmələrində, "Azərkosmos" ASC-də, eləcə də müxtəlif təyinatlı idarə, müəssisə və təşkilatlarda təcrübə toplamaq imkanlarına malik olacaqlar.

# BDU-da yeni ixtisaslaşma açılacaq: “Korreksiyaedici təlimin metodları və metodologiyası”

*Sosial elmlər və psixologiya fakültəsində 2024/2025-ci tədris ilindən “Korreksiyaedici təlimin metodları və metodologiyası” ixtisaslaşması üzrə yeni magistr proqramı həyata keçiriləcək.*

Bu ixtisaslaşma korreksiyaedici təlim və digər pedaqoji sahələr üzrə bakalavriatura səviyyəsini bitirən məzunlara böyük imkanlar yaradır. Sağlamlıq imkanları məhdud şəxslərin yaşından və sosial mənsubiyyətindən asılı olmayaraq xüsusi metodlar əsasında vəziyyətinin təyin edilməsi, müalicə və reabilitasiyası üzrə pedaqoji-psixoloji yardımın göstərilməsi yollarını öyrənmək olduqca vacibdir.

Bu ixtisaslaşmanı seçən magistrantlar ilk növbədə öyrənmə çətinliyi olan uşaqlarla korreksiyaedici işin metodoloji əsaslarını, psixoloji və pedaqoji xüsusiyyətlərini, autizmli, dayaq-hərəkət sistemi funksiyaları pozulmuş, ağır fiziki və əqli inkişaf qüsuru, eşitmə, nitq pozğunluğu, görmə imkanları məhdud olan uşaqlar, onların ailələri, psixi inkişafında geriliyi olan şəxslərlə işin metodlarını öyrənirlər.

# BDU mədəniyyət hüququ üzrə kadr hazırlığına başlayacaq

*Yeni tədris ilindən Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasında magistratura pilləsində “Mədəniyyət hüququ” ixtisaslaşması üzrə kadr hazırlığına başlanılacaq.*

İxtisaslaşma üzrə tədris proqramı mədəniyyət hüququnun beynəlxalq və milli müstəvidə əsaslı formalaşmasına və inkişafına təkan verəcək. “Mədəniyyət hüququ” ixtisaslaşmasında mədəniyyətin hüquqi tənzimlənməsi, müvafiq qurumların səlahiyyətlərinin öyrənilməsi, bu sahədə dövlət siyasəti, milli qanunvericiliyin səciyyəvi təhlili, mədəniyyat təsisatları tərəfindən göstərilən xidmətlərin hüquqi əsasları, mədəniyyət sahəsinin beynəlxalq müstəvidə tənzimlənməsi, mədəniyyət sahəsində insan hüquq və azadlıqlarının təmin edilməsi və s. istiqamətlər üzrə fərdi fənlərin tətbiqi nəzərdə tutulur.

İxtisaslaşmanın əsas məqsədlərindən biri də mədəni irsin qorunmasını təmin edəcək peşəkar hüquqşünasların hazırlanması üçün zəmin yaratmaqdır.

# BDU-nun ictimai həyatında fəal iştirak edən könüllülər təltif olunublar

***İyulun 4-də BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Universitetin ictimai həyatında fəal iştirak edən könüllülərlə görüşüb.***



Əliş Ağamirzəyev ölkəmizdə könüllülük hərəkatının ictimai həyatın müxtəlif sahələrində ölkə gənclərinin əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdiyini deyib. Bakı Dövlət Universitetinin ictimai həyatının aparıcı qüvvəsi olan "BDU könüllüləri" təşkilatı da yarandığı gündən ölkəmizdə həyata keçirilən irimiqyaslı beynəlxalq və respublika əhəmiyyətli tədbirlərdə, sosial layihələrdə, humanitar aksiyalarda fəal iştirak edib, ölkədə uğurla həyata keçirilən gənclər siyasəti və könüllülük hərəkatına öz töhfələrini verib. Təşkilatın üzvləri Universitetin sosial-ictimai həyatında, həmçinin tədrisin təşkili prosesində yaxından iştirak edirlər. Prorektor BDU-nun struktur bölmələrində və fakültələrində çalışan könüllü tələbələrin fəaliyyətini yüksək qiymətləndirib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, gəncləri yeni təşəbbüslər irəli sürməyə çağırıb.

Daha sonra Əliş Ağamirzəyev BDU könüllülərinin suallarını cavablandırıb.

Görüşün sonunda BDU-nun ictimai həyatında, Məzun Gününün, 2023/2024-cü tədris ilinin yaz imtahan sessiyasının təşkilində fərqlənən fəal gənclər təltif ediliblər.

# Yeni tədris ilindən BDU qida məhsullarının ekspertizası və marketinqi üzrə mütəxəssis hazırlığına başlayacaq

***Kimya fakültəsinin Analitik kimya kafedrasında 2024/2025-ci tədris ilindən etibarən ölkədə qida mühəndisliyi üzrə ixtisasli kadrların hazırlanması məqsədilə magistratura pilləsində yeni "Qida məhsullarının ekspertizası və marketinqi" ixtisaslaşması açılacaq.*** İxtisaslaşmada "Qida məhsullarının keyfiyyəti və təhlükəsizliyi", "Bioloji xammal və qida məhsullarının ekspertizası", "Qida məhsullarının analizinin müasir problemləri" və s. kimi fənlər üzrə tədris prosesi təşkil ediləcək.

Tədris zamanı magistrantlar qida məhsullarının ekspertizasına dair ümümi biliklərə yiyələnəcək, müasir dövrdə qida məhsullarını analiz etmək üçün fiziki, fiziki-kimyəvi, mikrobioloji analiz metodları, kimyəvi və orqanoleptik tədqiqat üsullarından geniş istifadə edəcəklər. Həmçinin qida məhsullarının analizində geniş istifadə olunan metodlar, onların praktik imkanları, qida məhsullarının təhlükəsizliyi üzrə milli və beynəlxalq proqramlarla, ekoloji təhlükəsizliyin normativ-hüquqi bazası ilə tanışlıq həyata keçiriləcək. Məhsulların mikroblarla çirklənməsinin mənbələrinin araşdırılması, qida məhsullarının istehsalı zamanı diqqət edilməli olan sanitar-epidemioloji nəzarət də ixtisaslaşmanın proqramına daxildir.

# BDU-da yeni ixtisas: "Ekologiya mühəndisliyi"

***Yeni tədris ilindən Ekologiya və torpaqşünaslıq fakültəsində bakalavriatura səviyyəsində "Ekologiya mühəndisliyi" ixtisası üzrə kadr hazırlığına başlanılacaq.***

"Ekologiya mühəndisliyi" ixtisasını uğurla bitirən məzunlar ətraf mühitin qorunması, ekoloji problemlərin həllində müasir üsulların istifadəsi, sutəmizləyici şəbəkələrdə effektiv təhlil və emal texnologiyaları, torpaqların bərpası, statistik məlumatlar əsasında ekoloji və təbii proseslərin riyazi modellərinin, tullantıların təkrar emal və utilizasiya sistemlərinin qurulması, müxtəlif ekoloji və mühafizə tədbirlərinin həyata keçirilməsində GİS texnologiyalarının tətbiqi, kənd təsərrüfatında məhsuldarlığın artırılmasında ekoloji və aerokosmik üsulların işlənməsi, ekoloji ekspertiza qanunlarına əsasən layihələndirmə, aerokosmik və ekoloji monitorinqlərin aparılması, yerüstü və peyk təsvirlərinin toplanması və emalı kimi peşə kompetensiyalarına yiyələnəcəklər.

Onlar həmçinin ətraf mühitin əsas çirklənmə mənbələrinin tədqiqi, atmosfer, hidrosfer və litosferin sənaye çirklənməsindən mühafizə üsulları, ekoloji təhlükələr və onlara qarşı mübarizə yolları, yanma ilə əlaqədar olan texnoloji istehsalın və meşə yanğınlarının ekoloji təhlükəsi, çirkab sularının çirkləndirici maddələrdən təmizlənməsi, səs-küy, vibrasiya, elektrik cərəyanı, lazer şüalarının orqanizmə təsiri, radiasiya şəraitinə nəzarət, yanğın təhlükəli kateqoriyaların müəyyənləşdirilməsi, yanğın zamanı istifadə olunan vasitələr və yanğınsöndürmə üsulları, ekoloji ekspertiza, audit və sertifikasiya qaydaları, riskin (təhlükə, zərər və ziyanın) analizi və qiymətləndirilməsi, analiz sisteminin kəmiyyət aspektləri üzrə biliklərə yiyələnəcəklər.

Bu ixtisas üzrə təhsil alan tələbələr müxtəlif təyinatlı sahələrdə, o cümlədən ekologiya və ətraf mühitin mühafizəsi, nəqliyyatın idarə olunması, energetika və bərpa olunan enerji sistemlərinin qurulması və istismarı, neft-qaz və kimya sənayesi, tullantıların idarə olunması və istehsalı, kənd təsərrüfatı, əkinçilik, torpaqların mühafizəsi, fövqəladə halların proqnozlaşdırılması və idarə olunması, aerokosmik tədqiqatlar, kosmik təsvirlərin emalı ilə məşğul olan qurumlarda, xalq təsərrüfatının müxtəlif təyinatlı müəssisələrində çalışmaq imkanına malik olacaqlar.

"Ekologiya mühəndisliyi" ixtisası üzrə təhsil alan tələbələr tədris müddətində BDU-da, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin struktur bölmələrində, Milli Aerokosmik Agentliyində, "Azərkosmos" ASC-də, eləcə də müxtəlif təyinatlı idarə, müəssisə və təşkilatlarda təcrübə toplamaq imkanı əldə edəcəklər.

# BDU-da ali təhsil müəssisələrinin rəhbər heyəti və məsul şəxsləri üçün təlim

***İyulun 8-də BDU-da ali təhsil müəssisələrinin rəhbər heyəti və məsul şəxsləri üçün Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsi tərəfindən "Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi)" qaydaları ilə bağlı təlim keçirilib.***

Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman şöbənin fəaliyyət istiqamətləri, təlimin məqsədi, Elm və Təhsil Nazirliyinin Kollegiyasının qərarına aid ümumi müddəalar barədə iştirakçılara məlumat verib. Bildirib ki, elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər dövlət başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı ilə Elm və Təhsil Nazirliyinə həvalə olunub.

Daha sonra Elm və ali təhsil siyasəti şöbəsinin müdir müavini Nərgiz Qədirxanova "Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi)" qaydaları ilə bağlı müvafiq təlimatları təlim iştirakçılarına çatdırıb.

Sonda Elm və təhsil siyasəti şöbəsi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və Elm və Ali Təhsil Agentliyinin əməkdaşları ali təhsil müəssisələrinin rəhbər heyətinin və məsul şəxslərinin qaydalarla bağlı suallarını cavablandırıb, təklif və tövsiyələrini dinləyiblər.

# BDU Elmi Kitabxanasının oxucuları üçün "EBSCO Discovery Service"in xidmətlərindən ödənişsiz istifadə imkanı

***Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının oxucuları üçün "EBSCO Discovery Service"in (EDS) xidmətlərindən ödənişsiz istifadə imkanı yaradılır.***

Sistemdən yalnız BDU-nun professor-müəllim heyəti, gənc tədqiqatçı və oxucuları deyil, BDU-da fəaliyyət göstərən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumuna (Az.KİK) üzv olan respublikanın 12 ali təhsil müəssisəsinin (Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Akademiyası, Milli Aviasiya Akademiyası, Bakı Ali Neft Məktəbi, Xəzər Universiteti, Azərbaycan Universiteti və Bakı Biznes Universiteti) oxucuları da istifadə edə biləcəklər.

"EBSCO Discovery Service" - xarici nəşrlərdən alınan məqalələr və biblioqrafik məlumatlar üzrə axtarış aparmağa imkan verən, təşkilatın lisenziyalı giriş (satın alınmış, abunə olunmuş resurslar, xarici təchizatçıların sınaq üçün istifadəyə verdiyi resurslar) imkanı olan sənədlərin tam mətnlərinə elektron formada daxil olmağı təmin edən kompleks inteqrasiya olunmuş axtarış sistemidir. Sistem "vahid axtarış pəncərəsi" rejimində işləyir, digər ali təhsil müəssisəsinin oxucuları sistemdən BDU-nun interfeysi üzərindən istifadə edə bilərlər.

Sistem müxtəlif təchizatçılar, nəşriyyatlar, platformaların açıq giriş rejimində mövcud olan yüzlərlə resurs paketini universitet üçün xüsusi məhdudiyyətlər olmadan indeksləşdirir. Bununla da tələbələr, müəllimlər və alimlər dünyanın nəhəng elmi informasiya mənbələri ilə işləmək imkanı əldə edirlər.

# Bu il BDU-nun SABAH qruplarını 244 məzun bitirir






***BDU-nun SABAH qruplarında 2023/2024-cü tədris ilində bakalavriat səviyyəsində 11 ixtisas (Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Biotexnologiya, Biologiya müəllimliyi, Coğrafiya müəllimliyi, Fizika müəllimliyi, Hüquqşünaslıq, Kimya müəllimliyi, Psixologiya, Kompüter elmləri, Riyaziyyat müəllimliyi, Tarix müəllimliyi), 38 qrup üzrə 954 tələbə, magistratura səviyyəsində isə 8 ixtisaslaşma (Ehtimal nəzəriyyəsi və riyazi statistika, Əməliyyatlar tədqiqi və sistemli təhlil, Jurnalistika, Kimyəvi kinetika və kataliz, Kompüter elmləri və texnologiyaları, Molekulyar biologiya, Nanohissəciklər fizikası, Nanohissəciklər fizikası (ingilis dili), Optimallaşdırma və optimal idarəetmə), 12 qrup üzrə 177 tələbə təhsil alıb.***

Azərbaycanın 10 ali təhsil müəssisəsindəki SABAH qrupları arasında ən çox ixtisas və tələbə sayı məhz BDU-dadır. Bu tədris ilində BDU-nun SABAH qruplarını bakalavriat səviyyəsi üzrə 200, magistratura səviyyəsi üzrə isə 44 məzun bitirir.

Ümumilikdə son 8 ildə BDU-nun SABAH qruplarından 1888 tələbə məzun olub.

Ötən il BDU-nun SABAH məzunlarından 162 nəfəri Azərbaycanda, 25 nəfəri isə xaricdə magistraturaya daxil olub. BDU-nun SABAH qrupunun ötənilki məzunlarından 46 nəfəri yerli və xarici doktoranturalarda təhsil alır. Qeyd edək ki, SABAH ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədilə 2013/2014-cü tədris ilində yaradılıb.




# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Məzun Günü



***İyulun 3-də BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Məzun Günü keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, ölkəmizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzulayıb. Elçin Babayev Ümummilli Lider Heydər Əliyevin BDU-nun dünya şöhrətli məzunu olduğunu xatırladıb, bütün məzunları Ulu Öndərin miras qoyduğu dəyərləri yaşatmağa çağırıb: "Bu gün həyatınızda dönüş nöqtəsidir, siz qalib ölkənin vətəndaşları kimi məzun olursunuz. Qalib, suverenliyini tam bərpa etmiş ölkəmizdə quruculuq, yaradıcılıq işləri sizi gözləyir. Bu müqəddəs yolda uğur nəsibiniz olsun!".

Rektor Kollecin gördüyü işləri, Universitet ilə sıx əməkdaşlığı yüksək qiymətləndirib, məzunların gələcəkdə bacarıqlı mütəxəssis kimi ölkəmizin tərəqqisində, cəmiyyətin inkişafında mühüm rol oynayacaqlarına əmin olduğunu bildirib.

Kollecin direktoru Səhər Orucova dövlətimizin təhsilə diqqət və qayğısından, bu tədris ilində görülən işlərdən söz açıb. O, BDU rəhbərliyinin hər zaman Kolleci diqqətdə saxladığını və Universitet ilə sıx əlaqədə fəaliyyət göstərdiklərini qeyd edib. Direktor bildirib ki, bu il kolleci 455 tələbə bitirir. Onlardan 257-si Azərbaycan, 198-u isə rus bölməsi üzrə təhsil alıb. 13 məzun təhsilini fərqlənmə diplomu ilə başa vurub: "Əminik ki, kollecin məzunları ən yüksək pillələrdə olacaq, Azərbaycanın parlaq gələcəyi naminə bir çox işlər həyata keçirəcəklər".

Abşeron Rayon İcra Hakimiyyətinin (RİH) başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gülnar Rəhimova, Yeni Azərbaycan Partiyasının Abşeron rayon təşkilatının sədri Abbas Əliyev, Abşeron RİH yanında İctimai Şuranın sədri, şəhid Elçin Həsənlinin anası Xatirə İsmayılova, valideyn Aynurə Axundzadə, məzun Pərvanə Məmmədzadə çıxışlarında əlamətdar gün münasibətilə məzunları təbrik edib, gənclərə gələcək həyatlarında uğurlar arzulayıb, onların müstəqil ölkəmizin hərtərəfli inkişafına layiqli töhfə verəcəklərinə əminliklərini söyləyiblər.

Kollecin ictimai həyatında xüsusi fəallıq nümayiş etdirən və təhsildə fərqlənən məzunlar diplom və təşəkkürnamələrlə təltif ediliblər.

Tədbir Kollec tələbələrinin və bir sıra incəsənət xadimlərinin çıxışlarından ibarət konsert proqramı ilə davam edib.




# BDU könüllüləri "Go Camp" piknik layihəsinin iştirakçısı olublar

***Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatının üzvləri Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə Xızıda keçirilən "Go Camp" piknik layihəsinin iştirakçısı olublar.***

Layihənin məqsədi könüllülər arasında birliyin təşviqi və şəbəkələşmənin artırılmasıdır.

Layihə müddətində fəal könüllülər üçün Xızı rayonunun Altıağac Milli Parkı ərazisində hayking gəzintisi və müxtəlif interaktiv oyunlar təşkil edilib.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 28.06.2024

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08